**“Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında ? Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZ ?RBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq, “Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında ? Azərbaycan Respublikasının Qanununu Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında ? Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, 18, maddə 243; 1995, 14, maddə 237; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, 5, maddə 385, 6, maddə 493; 1998, 2, maddə 70; 2000, 12, maddə 835; 2001, 3, maddə 143, 6, maddə 378, 11, maddə 674; 2002, 1, maddə 4, 8, maddə 463; 2004, 7, maddə 505; 2005, 3, maddə 152, 10, maddə 874; 2006, 1, maddə 3, 2, maddə 64, 3, maddə 219, 4, maddə 319, 11, maddə 933, 12, maddələr 1006, 1017, 1029; 2007, 7, maddə 712, 8, maddə 753, 11, maddə 1053; 2008, 3, maddə 158, 8, maddələr 699, 701, 10, maddə 886; 2009, 7, maddə 519; 2010, 3, maddə 166, 4, maddə 276, 11, maddə 935; 2011, 4, maddə 270, 6, maddə 474, 7, maddə 580; 2012, 7, maddə 647; 2013, 5, maddə 465, 6, maddə 619, 7, maddə 793; 2014, 4, maddə 323) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında “Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar ? sözləri “Pasportlar ? sözü ilə əvəz edilsin.

2. Preambuladan “, xaricə daimi yaşayış üçün gedən vətəndaşların hüquqi vəziyyəti, əcnəbilərin Azərbaycan Respublikasına gəlməsi və Azərbaycan Respublikasından getməsi qaydaları ? sözləri çıxarılsın.

3. 1-ci, 2-ci, 11-ci-15-ci maddələr ləğv edilsin.

4. 9-cu maddənin ikinci hissəsində “Bu Qanunun 1-ci maddəsinin birinci hissəsinin 2-ci və 3-cü bəndlərində, ikinci hissəsində nəzərdə tutulmuş hallarda ? sözləri “Vətəndaşın ölkədən getmək hüququ Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində göstərilmiş hallara əsasən müvəqqəti məhdudlaşdırıldıqda ? sözləri ilə əvəz edilsin.

5. 16-cı maddədən “, yaxud ölkədən getməyin və ölkəyə gəlməyin bu Qanunla müəyyənləşdirilmiş qaydaları pozulduqda ? sözləri çıxarılsın.

**İlham ?LİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 oktyabr 2014-cü il
1055-IVQD